# Qarabağ Azərbaycandır!

AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 8 (1455), 6 - 12 oktyabr 2020-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib

Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.

AZƏRTAC dövlətimizin başçısının müraciətini təqdim edir.

Prezident İlham Əliyevin xalqa müraciəti

- Əziz həmvətənlər.

Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!

Dörd il bundan əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlamışdır. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar. Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır. Hesab edirəm ki, bu gün Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır.

*(ardı 2-ci səhifədə)*

### Bədii gimnastika üzrə Avropa çempionatı Kiyevdə təşkil ediləcək

Bədii gimnastika üzrə Avropa çempionatı planlaşdırıldığı kimi Kiyevdə təşkil ediləcək. Bu barədə "Avropa Gimnastikası"nın mətbuat xidməti məlumat yayıb. Turnir Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşımayacaq.

Avropa çempionatının Kiyevdə mayın 21-dən 24-dək keçirilməsi nəzərdə tutulmuşdu, lakin koronavirus pandemiyası səbəbindən turnir təxirə salınmışdı. Yenilənmiş cədvəldə yarışın noyabrın 26-29-da keçirilməsi planlaşdırılır.

Qitə birinciliyində 39 ölkədən idmançılar iştirak edəcəklər.

### *AFFA-nın prezidenti "Qarabağ"ı təbrik etdi*

AFFA-nın prezidenti Rövnəq Abdullayev "Qarabağ" komandasını qələbə münasibətilə təbrik edib. UEFA Avropa Liqasının pley-off mərhələsi çərçivəsində Varşavadakı "Wojska Polskiego" stadionunda keçirilmiş "Legiya" (Polşa) - "Qarabağ" oyunundan sonra AFFA-nın prezidenti Rövnəq Abdullayev Ağdam təmsilçisinin baş məşqçisi Qurban Qurbanovla telefonla əlaqə saxlayaraq möhtəşəm qələbə münasibətilə təbrik edib.

Növbəti dəfə avrokuboklarda qrup mərhələsinə vəsiqə qazanması münasibətilə komandanın bütün üzvlərini Azərbaycan futbol ailəsi adından təbrik edən R.Abdullayev qrup mərhələsində kollektivə uğurlar arzulayıb.

### *Azərbaycan Cüdo Federasiyasından 11 dildə paylaşım*

Azərbaycan Cüdo Federasiyası rəsmi "Facebook" səhifəsində paylaşım edib.

Qurum növbəti dəfə ölkəyə və Milli Orduya dəstək verib.

Paylaşımda 11 dildə bu fikirlər yer alıb: "Azərbaycan Ermənistan tərəfindən işğal olunmuş torpaqları üçün döyüşür. Müharibə Ermənistanın deyil, Azərbaycanın torpaqlarında davam edir. "Qarabağ Azərbaycandır".

### AMADA-nın əməkdaşları "Əsgərə məktub" layihəsində iştirak ediblər

Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) əməkdaşları "Əsgərə məktub" layihəsində iştirak ediblər.

Bu barədə AMADA rəsmi "Facebook" səhifəsində paylaşım edib.

Paylaşımda "ASAN Könüllüləri" Təşkilatının əsgərlərimizə mənəvi dəstək olan bu təşəbbüsünün ölkəmizin qazanacağı böyük qələbəyə kiçik bir töhfə olacağına biz də inanırıq", - qeyd olunub.

AMADA
STAY CLEAN

## Anons

*İdman ictimaiyyəti qələbə sevincini "Olimpiya dünyası" ilə bölüşür* Səh. 3-4

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tərəfindən ordumuza dəstək Səh. 4

*"Junior NBA liqası Azərbaycanda basketbol tarixinin ən böyük layihəsi olacaq"* Səh. 5

### *"Qarabağ"ın Avropa Liqasının qrup mərhələsindəki rəqibləri müəyyənləşib*

**22 oktyabr**
23:00. "Makkabi" (Təl-Əviv, İsrail) - "Qarabağ"

**29 oktyabr**
21:55. "Qarabağ" - "Vilyarreal" (İspaniya)

**5 noyabr**
21:55. "Sivasspor" (Türkiyə) - "Qarabağ"

**26 noyabr**
21:55. "Qarabağ" - "Sivasspor"

**3 dekabr**
21:55. "Qarabağ" - "Makkabi"

**10 dekabr**
24:00. "Vilyarreal" - "Qarabağ"

Səh. 7

## *Olimpizm*

### Tokio Olimpiya Oyunlarının məşəl estafeti Fukuşimada başlayacaq

Tokio Olimpiya Oyunlarının məşəl estafeti 2021-ci il martın 25-də Fukuşima prefekturasında başlayacaq. Bu, koronavirus pandemiyasına görə Oyunların təxirə salınmasından əvvəl tərtib edilən plana uyğundur. Bu barədə sentyabrın 28-də Olimpiya Oyunlarının təşkilat komitəsi məlumat yayıb.

Plana əsasən, J-Village futbol təlimi mərkəzində başlayacaq estafetin 121 gün davam edəcəyi və Yaponiyanın 47 prefekturasından keçəcəyi bildirilir. Qeyd edilir ki, əvvəlki cədvəl gələn il keçiriləcək Oyunların təqviminə uyğun olaraq yalnız bir gün fərqi ilə dəyişiklik edilərək saxlanılıb.

Qeyd edək ki, Olimpiya Oyunları gələn il iyulun 23-də, Paralimpiya Oyunları isə avqustun 24-də başlayacaq.

Təşkilatçıların bildirdiyinə görə, ümummilli estafetdə əvvəlcədən seçilmiş təqribən 10 min nəfər iştirak edəcək. Prinsip etibarilə yerli marşrutlara və tədbirlərə əməl olunacağını qeyd edən təşkilat komitəsi yalnız hər bir regionun statusu nəzərə alınmaqla bəzi dəyişikliklərin aparılmasını nəzərdə tuturdu. Belə ki, təşkilatçılar xərcləri azaltmaq məqsədilə məşəl estafetinin cədvəlini qısaltmaq istəsələr də, yerli hakimiyyət orqanlarının bu məsələdə nümayiş etdirdiyi kəskin narazılıq onları bu ideyadan imtina etməyə məcbur edib.

Nəticədə yalnız estafeti müşayiət edəcək avtomobillərin və şəxsi heyətin sayının azaldılması qərara alınıb.

Xatırladaq ki, Olimpiya alovu cari ilin əvvəllərində Yunanıstan Olimpiya kəndindən götürüləcək Oyunların vaxtının dəyişdirilməsi barədə qərarın qəbulundan dörd gün əvvəl Yaponiyaya gətirilib.

Həmin vaxtdan etibarən məşəl təşkilatçı ölkədə saxlanılır. Hazırda məşəl Tokionun mərkəzində yerləşən Yaponiya Olimpiya Muzeyində ictimaiyyətə təqdim olunur. Həmin tədbirin noyabrın 1-də başa çatacağı qeyd edilir.

# Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib

(əvvəli 1-ci səhifədə)

Bilirsiniz, bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canıqanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır.

Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar.

Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq. Biz ermənilər tərəfindən bizim tarixi adlarımızı dəyişdirib tarixi saxtalaşdırmaq, eyni zamanda, Azərbaycan xalqının tarixi-mədəni irsini silmək cəhdlərinə son qoyduq. Bizim yaşayış məntəqələrinin tarixi adları bərpa edilir və bərpa ediləcəkdir.

Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir.

Bu gün cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər, necə ki, bütün Azərbaycan xalqı. Dünən bizim qədim yaşayış yerimiz - Suqovuşan qəsəbəmiz işğaldan azad edildi. Bütün Azərbaycan xalqı bu tarixi hadisəni qeyd edirdi, bir-birini təbrik edirdi, göz yaşlarını saxlaya bilmirdi. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını tökürdü. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi.

Bu gün Azərbaycan xalqı sevinc içindədir. Cəbrayıllılara və bütün Azərbaycan xalqına bu gün azad edilmiş yaşayış məntəqələrinin adlarını sadalamaq istərdim. Bu gün şanlı Azərbaycan Ordusu aşağıdakı yaşayış məntəqələrini azad edib: Cəbrayıl şəhəri, Karxulu kəndi, Şükürbəyli kəndi, Yuxarı Maralyan kəndi, Çərəkən kəndi, Daşkəsən kəndi, Horovlu kəndi, Decal kəndi, Mahmudlu kəndi, Cəfərabad kəndi.

Bu kəndlərin sakinləri, sizə müraciət edirəm, sizin həsrətinizə son qoyulur və bizim digər bütün qaçqın, köçkün soydaşlarımız bilsinlər ki, biz onları da onların dədə-baba torpaqlarına qaytaracağıq. Güc yolu ilə! Biz istəyirdik ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun, səbir göstərirdik. Danışıqlarda həmişə ədalətli mövqedə olmuşuq, bizə mənsub olanı istəmişik. Başqasının torpağında heç vaxt gözümüz olmayıb. Amma demişik ki, bu, bizimdir, xalqımızındır, millətimizindir, bizə qayıtmalıdır, danışıqlar yolu ilə qayıtmalıdır. Amma bu danışıqlar faktiki olaraq münaqişənin dondurulmasına gətirib çıxarmışdır. Yəni, buna hesablanmışdır. Otuz il ərzində danışıqlar gedə bilərmi?! Otuz il ərzində Azərbaycan xalqını belə vəziyyətdə saxlamaq olarmı?! Otuz il ərzində biz ümidlə yaşayırdıq ki, beynəlxalq birlik bu məsələni həll edəcək. Bu məsələnin həlli ilə məşğul olan ölkələr, beynəlxalq təşkilatlar öz sözünü deyəcək. Dünyanın ən ali beynəlxalq orqanı - BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin yerinə yetirilməsi üçün səy göstərəcək. Bu qətnamələr 27 ildir kağız üzərindədir. İyirmi yeddi il ərzində biz bütün dövrlərdə - danışıqların bütün dövrlərində konstruktiv mövqe göstərmişik, ədalətli mövqe göstərmişik. Ancaq bunun müqabilində nə gördük? Təcavüzkar daha da azğınlaşıb. Təcavüzkarın tamahı daha da böyüyüb, bizim dədə-baba torpağımıza göz dikib. Nəticədə işğal edilmiş bizim torpaqları qondarma "Dağlıq Qarabağ respublikası"na aid edib, yeni xəritələr dərc edib və bu xəritələrdə işğal edilmiş bütün ərazilər Dağlıq Qarabağ kimi təqdim edilir. Ondan sonra nə oldu? Ondan sonra bəyan etdilər ki, bir qarış torpağı Azərbaycana qaytarmayacağıq.

Biz demişik ki, axı bu, danışıqlar predmetinə zidd olan məsələdir. Axı danışıqlarda bizim əsas ümidverici məqamımız o idi və orada göstərilirdi ki, işğal edilmiş torpaqlar mərhələli yollarla Azərbaycana qaytarılacaq. Biz də buna razılıq vermişdik ki, mərhələli yollarla qaytarılsın, sülh yolu ilə qaytarılsın. Bir mərhələdə 5 rayon qaytarılsın, ikinci mərhələdə 2 rayon qaytarılsın, sonra azərbaycanlılar Dağlıq Qarabağa qayıtsınlar, Şuşaya qayıtsınlar, ondan sonra Azərbaycan və erməni xalqları birlikdə yaşasınlar, necə ki, vaxtilə biz yaşamışıq. Bu, ədalətli mövqedir. Bu, beynəlxalq hüququn bütün normalarına uyğun olan bir mövqedir. Biz nə istəmişik ki? Bunu istəmişik və buna haqqımız çatırdı və çatır. Amma nə gördük?! Gördük ki, Azərbaycan xalqının iradəsini sındırmaq istəyirlər. Gördük ki, bizə qarşı yeni müharibə açılır, bizi yeni müharibə ilə hədələyirlər. Gördük ki, iyul ayında heç bir səbəb olmadan bizim Tovuz şəhərimiz və digər yaşayış məntəqələrimiz atəşə tutuldu, hərbçilərimiz həlak oldu, mülki vətəndaş həlak oldu. Gördük ki, avqust ayında diversiya qrupu göndərildi və o diversiya qrupunun başçısı zərərsizləşdirildi, saxlanıldı. İndi ifadələr verir, deyir göndərilib ki, terror aktları törətsin. Budurmu danışıqlar prosesinə sadiqlik?! Sonra isə, Ermənistanın baş naziri cəfəng fikirlər ortaya atır, tarixi saxtalaşdırır, öz xalqını, beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Bir il bundan əvvəl o, "Qarabağ Ermənistandır və nöqtə" deməklə bütün danışıqlar prosesinə zərbə vurdu, onu mənasız etdi. Danışıqların formatını dəyişdirmək cəhdləri - "Qondarma, oyuncaq xunta rejimi ilə Azərbaycan danışıqlar aparmalıdır" sözləri danışıqlar prosesinə tamamilə ziddir. Adekvat cavab aldımı? Mən Minsk qrupunun həmsədr ölkələrinə, həmsədr olan səfirlərə, digər beynəlxalq təşkilatlara, Avropa İttifaqının nümayəndələrinə dəfələrlə demişdim ki, Ermənistana təsir edin, sanksiyalar tətbiq edin, təzyiq edin. Belə olmaz. Əgər güclü təsir olmasa, Ermənistan daha da azğınlaşacaq, daha da qudurácaq, yeni iddialar ortaya atacaq. Eşitmədilər məni. Mən istəyirdim bu məsələ sülh yolu ilə həll olunsun. Eşitmədilər. Hesab edirdilər ki, Azərbaycan xalqı və mən - Azərbaycan Prezidenti bu vəziyyətlə barışacağam?! Hesab edirdilər ki, bizim müqəddəs şəhərimiz olan Şuşa erməni tapdağında qalacaq, mən bununla barışacağam?! Azərbaycan xalqının tarixinə zərbə vuran erməni cəlladları ilə biz danışıqlarmı aparmalıyıq? Azərbaycan xalqı təhqir edildi, Şuşada qondarma rejimin başçısı özünə "andiçmə mərasimi" keçirmişdir. Baxım görüm, indi andiçmə mərasimi harada keçiriləcək, yas mərasimini keçirəcək? Hər biri qaçıb siçan kimi gizlənib. Çıxsın ortalığa! Ermənistanın baş naziri gedib Şuşada, Cıdır düzündə rəqs edir, hesab edir ki, biz bununla barışacağıq?! Səhv edir! Heç vaxt biz bununla barışmayacağıq. Qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentinin Şuşaya köçürülməsi nə deməkdir?! Yenə də Azərbaycan xalqını təhqir etmək cəhdidir. Cəbrayıla Ermənistandan yeni yolun çəkilməsi nə deməkdir?! O deməkdir ki, orada qanunsuz məskunlaşma aparılacaq. Artıq Livandan, başqa yerlərdən erməniləri gətirirlər, köçürürlər bizim qədim şəhərimizə, Şuşada yerləşdirirlər, televiziyada göstərirlər, beynəlxalq konvensiyaları pozurlar, Cenevrə Konvensiyasını tapdalayırlar. Bunlara söz deyən var?! Tapşırıq vermişəm bütün bizim xarici diplomatik orqanlara - məsələ qaldırın, BMT-də, ATƏT-də, Avropa İttifaqında, başqa təşkilatlara, deyin ki, bu, qanunsuzdur! Qanunsuz məskunlaşma cinayətdir! Buna reaksiya oldu?! Minsk qrupu bir açıqlama verdimi?! Vermədi! Avropa İttifaqı verdimi?! Vermədi! Dedi ki, bu, bizi maraqlandırmır. Maraqlandırmırsa, indi də maraqlandırmasın. İndi nə əl-ayağa düşmüsünüz? İndi nə hoqqalardan çıxırsınız? Azərbaycana qarşı iftiralar irəli sürülür, bəzi ölkələr, Avropa ölkələri bizi ittiham edirlər. Getsinlər güzgüyə baxsınlar. Bu ittihamların heç bir əsası yoxdur ki, kimsə imkan verməz Azərbaycan Dağlıq Qarabağı fəth etsin. Dağlıq Qarabağ bizimdir, bizim torpağımızdır, biz oraya qayıtmalıyıq, qayıdırıq və qayıdacağıq!

Ona görə indiki vəziyyətdə birinci günahkar Ermənistan rəhbərliyidir. Eyni zamanda, bu məsələyə biganə yanaşan və daim Ermənistanın tərəfini saxlayan və bu işğalı əbədi etmək istəyən bəzi ölkələrin dairələridir. Azərbaycan özü bu məsələni həll edir və mən 27 sentyabr hadisələrindən əvvəl Ermənistana demişdim, gəl, təkbətək vuruşaq. Baxaq kim-kimdir! İndi nə oldu? Paşinyan hər gün bir dünya liderinə zəng edir. Hər gün! Mən heç kimə zəng etməmişəm, heç bir liderə zəng etməmişəm. Təmaslarım olub, mənə zəng ediblər. Amma o, adam qalmayıb ki, zəng etməsin, yalvarmasın, emissar göndərməsin, ağlamasın, onların ayağına yıxılmasın. Bax budur bunun sonu. Əgər bizimlə normal dildə danışsaydı, bizim müqəddəs şəhərimizi mundarlamasaydı, əlbəttə, biz ümidlərlə yaşayıb çalışardıq ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun. Amma hər addım təxribat, hər addım təhqir və hesab edir ki, biz bununla barışacağıq?! İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tankları biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!

Ermənistan rəhbərliyi yaxşı düşünsün, hələ ki, gec deyil. Bizə yeddi şərt irəli sürür. Sən kimsən ki, bizə şərt qoyasan?! İndi baxım görüm nə şərt qoyursan bizə! Yıxılıb diz çöküb yalvarırsan ki, atəşkəs bərpa olunsun. Atəşkəs Ermənistanın baş nazirinin xahişi ilə 2 il ərzində bərpa olunmuşdu. Məndən xahiş etmişdi ki, daxildə vəziyyət ağırdır, oradan-buradan məni sıxırlar, mənə vaxt verin, mən bu məsələni həll edəcəyəm, mən yeni fikirlərlə gəlmişəm. Mən keçmişdə nə olub hamısının üstündən xətt çəkmişəm, imkan verin, vaxt verin. Dedim yaxşı. Nə oldu? Bir ildən sonra çıxış edib deyir ki, "Qarabağ Ermənistandır". İndi desin "Qarabağ Ermənistandır". İndi mənə olan zənglər və zənglər əsnasında gedən söhbətlər əlbəttə ki, konfidensial xarakter daşıyır və bəzi hallarda indi soruşurlar bəs, sizin şərtiniz nədir? Mənim şərtim birdir - çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik. Halbuki indi şiddətli döyüşlər getdiyi zaman bunu etmək çətindir. Çünki biz dayansaq, onlar dayanmayacaq. Amma hər halda, bunun üzərində işləmək olar. Yoxsa ki, siz dayanın, onlara vaxt verin. Nəyə vaxt verək? Vaxt verək ki, güc toplasınlar? Vaxt verək ki, yenə də adam toplasınlar bizə hücum etsinlər? Bizi belə sadəlövh sayırlar bunlar? Vaxt verin ki, bunlar gəlsinlər danışıqlara. Mən nə lazımdır dedim, vəssalam.

Bu gün Cəbrayılın işğaldan azad edilməsi Ermənistana, onun havadarlarına dərs olmalıdır. Mən hadisələrdən əvvəl demişdim. Orada təxribat törətdi, dərs verdik, dərs olmadı. Burada təxribat törətdi, dərs verdik, dərs olmadı. Nəhayət, bu dəfə təxribat törətdi, dərs verdik, indi dərs oldu.

Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## *Gənclər və İdman naziri Ermənistanın təcavüzü ilə əlaqədar beynəlxalq təşkilatlara məktub göndərib*

Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov xarici ölkələrin gənclər və idman sahələrinə məsul nazirliklərinə, beynəlxalq təşkilatlara və digər aidiyyəti qurumlara Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı məktub göndərib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, məktubda Ermənistanın Azərbaycana qarşı otuz ildir davam edən silahlı təcavüzü nəticəsində ölkəmizin ərazilərinin 20 faizi, o cümlədən Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonun işğal edildiyi, 20 min azərbaycanlının həlak olduğu, 50 min insanın yaralandığı və müxtəlif dərəcəli xəsarətlər aldığı, 5 mindən artıq azərbaycanlının əsir və itkin düşdüyü vurğulanıb.

Həmçinin məktubda Ermənistanın öz ərazisində və işğal etdiyi Azərbaycan torpaqlarında həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsi, 1994-cü ildə əldə edilmiş atəşkəs rejiminə baxmayaraq, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindəki mülki əhalini və hərbi mövqeləri davamlı olaraq hədəfə alması, nəticədə yüzlərlə vətəndaşımızın öldürülməsi və ya müxtəlif dərəcəli bədən xəsarətləri alması əksini tapıb.

Məktubda 1992-ci ilin fevralında Ermənistan ordusu tərəfindən törədilmiş Xocalı soyqırımı haqqında da məlumat verilib. Ermənistanın Cenevrə Konvensiyasını, o cümlədən BMT-nin Uşaq Hüquqları Konvensiyasını və insan hüquqları sahəsində digər sənədlərin müvafiq müddəalarını kobud şəkildə pozması xüsusilə diqqətə çatdırılıb.

Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətinin mühüm məqamlarını özündə əks etdirən məktubda sentyabrın 27-də səhər saat 06:00-dan etibarən Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini növbəti dəfə kobud şəkildə pozaraq bir neçə istiqamətdə müxtəlif növ silahlardan, o cümlədən ağır artileriyadan istifadə edərək Azərbaycanın yaşayış məntəqələrini, eyni zamanda, hərbi mövqelərini atəşə tutduğu bildirilib. Qeyd olunub ki, nəticədə Naftalan rayonunun Qaşaltı kənd sakini Elbrus Qurbanov və onun ailəsinin dörd üzvü olmaqla, ümumilikdə 20-dək mülki şəxs, o cümlədən uşaqlar həlak olub, onlarla mülki şəxs müxtəlif növ bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib. Mülki şəxslər arasında itkilərin sayının hər gün artdığı diqqətə çatdırılıb.



# Qarabağ Azərbaycandır!

# İdman ictimaiyyəti qələbə sevincini “Olimpiya dünyası” ilə bölüşür

***Sentyabrın 27-dən etibarən Dağlıq Qarabağda düşmən təxribatına layiqli cavab vermək üçün əks-hücuma keçən rəşadətli ordumuzun qələbə sorağı bütün xalqımızı sevindirir. 30 ilə yaxındır ki, işğal altında olan torpaqlarımızın bugünlərdə hissə-hissə azad olunması xəbərləri bir-birini əvəz edir.***

***Ali Baş Komandan, cənab İlham Əliyevin uğurlu siyasəti və ordumuzun şücaəti sayəsində illər ərzində yağı tapdağı altında qalan doğma yurdumuz azadlığa qovuşur. Yaşından, vəzifəsindən asılı olmayaraq hər bir azərbaycanlı bu gün döyüşlərdən danışır, ardıcıl qələbələr münasibətilə bir-birini təbrik edir. Ölkənin hər bir yerində üçrəngli bayrağımız zəfər nümunəsinə çevrilib. Beynəlxalq arenalarda ən yüksəkdə dalğalanan Azərbaycan bayrağı bu gün işğaldan azad olunmuş mövqelərə sancılır. Azərbaycanın idmanın və Olimpiya Hərəkatının təbliğində özünəməxsus rolu olan “Olimpiya dünyası” qəzeti də bu gün çoxsaylı oxucularına ordumuzun qələbə soraqlarını çatdırır. İdman ictimaiyyətinin qələbə sevincini və onların arzularını öyrənmək üçün əməkdaşlarımız idman federasiyaları və idmançılarla əlaqə saxlayıb. Həmin fikirləri təqdim edirik.***

## “Azərbaycanın ərazi bütövlüyünün bərpa olunacağı gün çox yaxındadır”

***Fərid Mansurov (Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri, Olimpiya və ikiqat dünya çempionu):***

- İşğalçı Ermənistan ordusunun genişmiqyaslı təxribatlarından sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli Ordumuzun əks-hücumu nəticəsində işğal edilmiş torpaqlarımız azad edilir və işğaldan azad olunan torpaqlarımızda şanlı bayrağımız dalğalanır.

Biz yüz minlərlə idmançı ordusu olaraq, hər zaman şanlı bayrağımızın yarış meydanlarında dalğalanması üçün göstərdiyimiz əzm və rəşadəti bu gün də torpaqlarımızın azadlığı uğrunda qanımız və canımızla göstərməyə hazırıq. Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətində dediyi kimi, biz haqq yolundayıq. Torpaqlarımızın bir qarışı da düşmən işğalında qalmayacaq.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə dörd qətnamənin qəbul olunmasına, bu sənədlərin hər birində ermənilərin təcavüzkar siyasətinin pislənilməsinə və erməni hərbi birləşmələrinin zəbt etdikləri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmalarının birmənalı şəkildə tələb olunmasına baxmayaraq, bu tələblər indiyədək yerinə yetirilməyib.

Eyni zamanda, otuz ilə yaxındır ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqların heç bir nəticə verməməyib və Ermənistan rəhbərliyinin apardığı təcavüzkar siyasəti nəticəsində Tovuzda və digər bölgələrdə təxribatlar törədilib. Bütün beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən tanınan sərhədlərimizin rəşadətli ordumuz tərəfindən tezliklə bərpa olunacağı, qaçqın və məcburi köçkünlərimizin doğma yurdlarına qayıdacaqları gün çox yaxındadır. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## “Qələbənin bizim olacağına əminəm”

***Zemfira Meftaxetdinova (Daxili İşlər Nazirliyinin (DİN) İdman Cəmiyyətinin sədri, Olimpiya çempionu):***

- 30 ilə yaxın bir dövrdə ölkəmizin dilbər guşəsi - Qarabağın düşmən tapdağında qalması bizi çox narahat edirdi. Çünki ölkəmizin 20 faizi işğal edilib, bir milyondan çox soydaşımız yurdundan-yuvasından didərgin düşüb, xain qonşularımız müqəddəs yerləri, məscidləri, pirləri, tarixi-mədəniyyət abidələrimizi darmadağın ediblər.

Azərbaycan ordusu öz qədim torpaqlarını düşməndən azad etmək üçün mübarizə aparır. Dövlət başçımız İlham Əliyev dəfələrlə öz çıxışlarında Ermənistanın işğalçı siyasət aparması ilə bağlı dünya ictimaiyyətini məlumatlandırıb. Bu torpaqlar Azərbaycana məxsusdur və nə yol ilə olursa olsun, düşmən torpaqlarımızı tərk edəcək. Onlar bizim evimizdə məskunlaşıblar və biz onları buradan qovacağıq. Biz haqqın və ədalətin tərəfdarıyıq. Diqqət yetirin, bizim şanlı ordumuz düşmən əsgərləri ilə vuruşduğu halda, onlar bizim dinc sakinlərimizi hədəfə alırlar. Bu da onların hansı xislətə sahib olduqlarının göstəricisidir. Bir vətənpərvər Azərbaycan vətəndaşı olaraq qələbənin bizim olacağına əminəm. Biz torpaqlarımızı düşmən tapdağı altından azad etmək üçün çalışırıq və buna da nail olacağıq. Qəhrəman Azərbaycan əsgəri bu sevinci Azərbaycan xalqına bəxş edəcək! Prezidentimizin də dediyi kimi, Qarabağ Azərbaycandır! Bu, belə olub və belə də olacaq.

## “Cəbhədən gələn hər bir xəbəri həyəcanla izləyirəm”

***Rizvan Rəsulov (Azərbaycan Ağır Atletika Federasiyasının baş katibi):***

- Biz bu gün öz doğma torpaqlarını müharibə yolu ilə azad edən böyük millətin, xalqın nümayəndələriyik. Otuz ilə yaxındır bugünki qələbələr üçün hazırlaşırdıq. Xalqımız yaxşı bilirdi və unutmurdu ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Bunun bariz nümunəsidir ki, bugünlərdə yaşından asılı olmayaraq hər kəs ordu sıralarına könüllü olaraq yollanmaq üçün əlaqədar qurumlara müraciət edir. Hamı ruh yüksəkliyi nümayiş etdirir.

Mən də hər bir Azərbaycan vətəndaşı kimi torpaqlarımızın işğaldan azad olunmasına sevinirəm. Bunu heç bir sözlə ifadə etmək olmur. Cəbhədən gələn hər bir xəbəri həyəcanla izləyirəm. Bir həftədən artıqdır ki, gərgin döyüşlər gedir. Bu döyüşlərdə Azərbaycan əsgəri üstün tərəfdir. Məğlubiyyətlə barışmayan düşmən təxribata yol verir, bizim rayon və şəhərlərimizi, dinc sakinləri hədəf seçir. Onlar düşünür ki, bu yolla insanlarımızın qələbə əzmini qıra biləcək. Artıq zaman o zaman deyil. İndi xalqımız yaxşı anlayır ki, düşmən bizim torpaqlarımızı qeyri-şərtsiz tərk etməlidir, əks halda ordumuz onları buna məcbur edəcək. Biz Ağır Atletika Federasiya olaraq Ali Baş Komandanın yanındayıq. Onun verdiyi əmrlərə tabeyik. Yaşasın Azərbaycan, yaşasın qəhrəman Azərbaycan əsgəri!

## “Biz doğma torpaqlarımızın düşməndən xilası uğrunda döyüşürük”

***Kazbek Tuayev (İxtisaslaşdırılmış Uşaq-Gənclər Olimpiya Ehtiyatları Futbol Məktəbinin direktoru, futbol veteranı):***

- Bu gün hər birmizin ürəyi Qarabağda döyünür. Uzun illərdən bəri düşmən tapdağı altında qalan torpaqlarımızın azadılığı uğrunda gərgin döyüşlər gedir. Bu döyüşlərdə qəhrəman Azərbaycan övladları rəşadətlə azğın düşmənə zərbələr endirir. Hər bir Azərbaycan əsgəri vətənpərvərlik nümayiş etdirir. Ali Baş komandanın qismən səfərbərlik çağırışına minlərlə vətən övladı böyük həvəslə qoşulur. Bir neçə gün əvvəl Azərbaycanın Milli Qəhrəmanı Yuri Kovalyovun xatirəsinə həsr olunmuş yarış keçirdik. Qarabağ döyüşlərində qəhrəmancasına döyüşərək, şəhid olan Yuri Kovalyov bizim məktəbin yetirmələrindən sayılır. İxtisaslaşdırılmış Uşaq-Gənclər Olimpiya Ehtiyatları Futbol Məktəbinin keçirdiyi yarışın bağlanış mərasimində döyüşlərə yollanan xeyli yetirməmiz iştirak edirdi. Onlarla görüşüb, Vətənin müdafiəsinə könüllü olaraq yollanan övladlarımızın hər birinə uğurlar dilədik. Ümumiyyətlə, biz müharibədə haqq-ədalət tərəfdarıyıq. Biz doğma torpaqlarımızın düşməndən xilası uğrunda döyüşürük. İnanırıq ki, yaxın günlərdə ordumuz yeni zəfərləri ilə bizi sevindirəcək. Tezliklə bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq. O gün, uzaqda deyil. Çünki Qarabağ Azərbaycandır!

## “Boksçularımız ordu sıralarına qoşulmağa, hərbçilərimizlə çiyin-çiyinə döyüşməyə hazırdır”

***Nəriman Abdullayev (Boks üzrə yığma komandamızın böyük məşqçisi):***

- Xalqımız Azərbaycanın müzəffər Ordusunun bu zəfər yürüşünü çoxdan gözləyirdi. Nəhayət, bu tarixi gün gəlib çatdı. Mənfur düşmənin növbəti təxribatlarına layiqincə cavab verən ordumuz əzmlə, fədakarlıqla irəliləyir.

Azərbaycan əsgəri öz əzəli torpağının bütövlüyü uğrunda vuruşur. İnanırıq ki, üçrəngli Azərbaycan bayrağı tezliklə Qarabağ səması üzərində dalğalanacaq, qələbə bizimlə olacaq. Bu gün Azərbaycan xalqının ürəyi Qarabağla döyünür. Bu döyüş yolu qəhrəmanlıq, fəxarət yoludur. Azərbaycan Ordusu qüdrətini, rəşadətini bütün dünyaya nümayiş etdirir. Biz torpaqlarımız uğrunda canlarından keçən Vətən oğulları ilə fəxr edirik. Tanrı əsgərlərimizə dayaq olsun! Biz idmançılar və məşqçilər Ali Baş Komandan İlham Əliyevin, Azərbaycanın rəşadətli ordusunun yanındayıq. Hazırda ölkəmizdə hərbi vəziyyət elan olunub. Mən qəzetiniz vasitəsi ilə xalqımıza belə bir ərəfədə bildirmək istəyirəm ki, düşmənin hər hansı yalan məlumatlarına inanmasınlar, dəqiqləşdirilməmiş informasiyalar paylaşmasınlar. İnanıram ki, ordumuzun qələbəsini Qarabağda qeyd edəcəyik. Prezidentimizin də dediyi kimi, Qarabağ Azərbaycandır! Biz məşqçilər hər zaman qeyd edirik ki, biz ordu sıraları üçün gələcəyin əsgərlərini hazırlayırıq. İdmanla məşğul olan hər bir yeniyetmə və gənc sabahın əsgəridir. Bu gün boksçularımız da ordu sıralarına qoşulmağa və düşmənə qarşı mübarizədə hərbçilərimizlə çiyin-çiyinə döyüşməyə hazırdır.

## “Hər gün bizi qələbəyə daha da yaxınlaşdırır”

***Niyaməddin Paşayev (Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti, dünya çempionu):***

- Cəbhədən gələn xəbərlərdən göründüyü kimi, Azərbaycan Ordusunun döyüş ruhu, qələbə əzmi çox yüksəkdir. Xalqımız tam əmindir ki, dövlətimizin düşünülmüş siyasəti, Ordumuzun qüdrəti sayəsində işğal altında olan torpaqlarımız tezliklə azad olunacaq, üçrəngli bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq. Hər gün bizi qələbəyə daha da yaxınlaşdırır. Biz idmançılar və idman ictimaiyyəti nümayəndələri cənab Ali Baş Komandan İlham Əliyevin və Ordumuzun yanındayıq. Hərbçilərimizlə qürur duyuruq. Mən də öz növbəmdə hərbçilərimizə dəstək olmaq üçün Füzuliyə gəlmişəm. Bacardığımız qədər hərbçilərimizə dəstək olmağa çalışırıq. Biz də bu yolla vətəndaşlıq borcumuzu yerinə yetiririk.

Digər idmançılarımız kimi taekvondoçularımız da çox istəyirlər ki, cəbhədə düşmənə qarşı hərbçilərimizlə çiyin-çiyinə döyüşsünlər. Ölkədə elan edilən qismən səfərbərliyə əsasən millimizin üzvü Ayxan Tağızadə Hərbi Komissarlığa çağırılıb və ehtiyat hərbçi kimi qeydiyyata alınıb.

*(ardı 4-cü səhifədə)*



# Qarabağ Azərbaycandır!

# İdman ictimaiyyəti qələbə sevincini “Olimpiya dünyası” ilə bölüşür

(əvvəli 3-cü səhifədə)

## “Uğrunda güllə yarası alıb, görmə qabiliyyətimi itirdiyim kənd işğaldan azad edildi”

***İlham Zəkiyev (Əməkdar idman ustası, cüdo üzrə ikiqat Paralimpiya və dünya, yeddiqat Avropa çempionu, Qarabağ müharibəsi veteranı):***

- Sentyabrın 27-də güclü, qüdrətli, döyüş ruhlu Ordumuzun keçirdiyi uğurlu əks-əməliyyat nəticəsində düşmənin xeyli canlı qüvvə və hərbi texnika itirərək geri çəkilməsi xəbərini eşitdim. Bu xəbəri eşidəndə həm sevindim, həm də təəssüfləndim. Təəssüflənməyimin səbəbi ona görə idi ki, mən özüm də bu hərbi əməliyyatlarda iştirak etmək istəyirdim. Amma təəssüf ki, bu mümkün olmadı. Kaş mənim də səhhətim imkan verərdi və qardaşlarımla çiyin-çiyinə döyüşərdim. Bu hissləri sözlə ifadə edə bilmirəm. Yaralandığım Füzuli rayonunu Aşağı Əbdürrəhmanlı kəndi işğaldan azad edildi. Bundan başqa düşmən tapdağı altında olan bir sıra kəndlərimiz, Suqovuşan, Cəbrayıl şəhəri və rayonunun bir neçə kəndi, həmçinin əlverişli yüksəkliklər işğaldan azad edilərək ordumuzun nəzarəti altına keçdi. Bu qələbə münasibəti ilə cənab Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevi və Azərbaycan xalqını təbrik edirəm. Prezidentimizin də dediyi kimi, bizim işimiz haqq işidir və bu mübarizədə mütləq zəfər çalacağıq. Biz özümüz öz müqəddəratımızı həll edəcəyik. Doğrudan da, biz bu mübarizədə hansı ölkələrin bizim dostumuz olduğunu gördük. Mən xüsusilə Türkiyə dövlətini vurğulamaq istərdim. Türkiyə dövlətinin rəhbərliyi başda olmaqla bizi dəstəkləyən bütün sadə vətəndaşlarına və idmançılarına təşəkkürümü bildirirəm. Bir sıra türkiyəli idmançılar mənə zəng edərək Azərbaycanın haqlı mübarizəsini dəstəklədiklərini bildirdilər. Bizə yaxın olan və dəstək olan idmançılara minnətdaram.

Ordumuzun bu cür irəli getməsi, düşməni darmadağın etməsi bizi çox sevindirir. Qulağımız səsdədir. Cəbhədən gələn son xəbərləri səbirsizliklə gözləyirik. Təbii ki, bu müharibədir. Müharibə itkisiz olmur. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralı əsgər və zabitlərimizə şəfa versin. İnanıram ki, tezliklə Qarabağımız işğaldan azad ediləcək və üçrəngli bayrağımız Şuşada, Laçında, Qubadlıda, Kəlbəcərdə dalğalanacaq. Orduımuza inanırıq. Uca tanrı cənab Ali Baş Komandanımız İlham Əliyevi, ordumuzu və xalqımızı qorusun. Bu yaxınlarda “Qarabağ” komandasının UEFA Avropa Liqasının pley-off mərhələsində Polşanın “Legiya” klubu üzərində möhtəşəm qələbəsi və qələbədən sonra komandamızın əsgər salamı verməsi də bizə çox gözəl əhval ruhiyə bəxş etdi. Mən “Qarabağ” klubuna Avroliqanın qrup mərhələsində uğurlar arzu edirəm.

## Azərbaycan Voleybol Federasiyasından ordumuza dəstək

Azərbaycan Voleybol Federasiyası da ordumuza dəstəyini qəzetimiz vasitəsi ilə bildirib Federasiyanın mətbuat xidmətindən “Olimpiya dünyası” qəzetinə bildirilib ki, Azərbaycan tezliklə işğalçı ordunu doğma torpaqlarımızdan qovaraq tarixi ərazilərimizi yenidən bərpa edəcək:

“Bu gün hər bir Azərbaycan vətəndaşı kimi, Azərbaycan Voleybol Federasiyasının rəsmiləri, komandalarımız və voleybol ictimaiyyətinin ürəyi Dağlıq Qarabağda döyünür. 30 ildir ki, düşmən tapdağı altında olan torpaqlarımıza qovuşmağımıza az qalıb. Tarixi torpaqlarımız uğrunda gedən şiddətli döyüşlərdə hərbçilərimizi dəstəkləyir, qısa zamanda qazanılan böyük uğurların davamına inanırıq. Əsgərlərimizin sərgilədiyi şücaət möhtəşəmdir. Təbii ki, voleybolçularımız da düşmənlə mübarizə aparmağa hər an hazırdırlar. Ermənistan silahlı qüvvələrinin işğal etdiyi əraziləri azad etmək üçün əks-hücuma keçən Azərbaycan Ordusuna Avropa Voleybol Konfederasiyası, Türkiyə və digər ölkələrin federasiyaları dəstək olduqlarını bəyan ediblər. Şanlı Azərbaycan ordusu, biz sizinlə fəxr edirik və hər zaman sizə dəstək olacağıq!”

## “Azərbaycan dövlətini, ordusunu, xalqını dəstəkləyir və hər zaman yanındayam”

***İrina Kindzerska (Cüdo üzrə dünya və Avropa çempionatlarının bürünc, IV İslam Həmrəyliyi Oyunlarının gümüş mükafatçısı):***

Cüdo üzrə milli komandamızın üzvü ukraynalı idmançımız İrina Kindzerska da cəbhə xəttində baş verən son hadisələrə biganə qalmayıb. “Olimpiya dünyası” qəzetinə fikirlərini bildirən xanım cüdoçumuz işğalçı Ermənistan ordusunun təxribatlarını pisləyib:

- Dağlıq Qarabağın Azərbaycan ərazisi olması bütün dünyaya məlumdur. Bu ərazilərin Azərbaycan tərəfindən hər hansı yolla olur-olsun işğaldan azad ediləcəyi heç kəsdə şübhə doğurmur. Həyat yoldaşımla birgə hər gün baş verən yenilikləri izləyirik. Azərbaycan dövlətini, ordusunu, xalqını dəstəkləyir və hər zaman yanındayıq. Düşmənə qarşı mübarizədə şəhid olan əsgərlərin ailələrinə başsağlığı verir və onlara səbr diləyirəm.

***İrina Kindzerskanın həyat yoldaşı cüdo üzrə məşqçi olan azərbaycanlı Həmid Əliyev də məsələ ilə bağlı fikirlərini bizimlə bölüşüb. O, tezliklə Azərbaycanın tarixi torpaqlarının işğaldan azad ediləcəyini əminliklə qeyd edib:***

- Azərbaycanın Cəbrayıl rayonundan olan bir sakin kimi düşmən tapdağı altında olan torpaqlarımızın azadlığı uğrunda əlimdən gələni etmək mənim borcumdur. Vətənimin hər bir qarış torpağı üçün canımdan keçməyə hazıram. Qərib ölkədə olmağımdan asılı olmayaraq, Azərbaycan ordusunun düşmənə endirdiyi ağır zərbələri izləyir və ordumuzla fəxr edirəm. Əsgərlərimizlə çiyin-çiyinə düşmənə qarşı vuruşa bilmədiyim üçün vicdanım məni rahat buraxmır. Ukraynada yaşasam da, media vasitəsi ilə baş verən son hadisələri izləyirəm. Bu günlərdə Azərbaycan ordusunun ardıcıl qələbə xəbərlərini aldıq. Sevindirici haldır ki, Azərbaycanın qüdrətli ordusu sayəsində bir sıra kəndlərimiz, o cümlədən mənim doğma yurdum olan Cəbrayıl şəhəri və rayonunun bir neçə kəndi işğaldan azad olundu. Bu qələbə münasibəti ilə xalqımızı təbrik edirəm. Sevincimi sözlə ifadə etmək çox çətindir. Şanlı ordumuzun düşmən üzərində əldə etdiyi qələbə məni nə qədər sevindirirsə, şəhid olan igidlərimiz də bir o qədər kədərləndirir. Dualarımız Azərbaycanladır. Zəfər bizim olacaq.

# Azərbaycanın Paralimpiya çempionları erməni vandalizmi ilə bağlı dünya ictimaiyyətinə müraciət ediblər

Ermənistan silahlı qüvvələri sentyabrın 27-də səhər saatlarından başlayaraq Azərbaycana qarşı genişmiqyaslı hücuma başlayıb, yeni ərazilərimizi işğal etmək məqsədilə təmas xətti boyunca ordumuzun mövqelərini və mülki əhalinin yaşadığı əraziləri artilleriya atəşinə tutub. Düşmənin mülki əhalini hədəfə alması nəticəsində azyaşlılar da daxil olmaqla xeyli insan həyatını itirib, 100 nəfərdən çox insan isə yaralanıb. Dinc əhalinin əmlakına külli miqdarda ziyan dəyib.

Azərbaycan Milli Paralimpiya Komitəsindən bildirilib ki, bu faktlar Paralimpiya çempionlarımız - İlham Zəkiyev, Oleq Panyutin, Oloxan Musayev, Afaq Sultanova, Natali Pronina, Ramin İbrahimov və Ramil Qasımovun dünya ictimaiyyətinə müraciətində əksini tapıb.

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ PARALİMPİYA KOMİTƏSİ

Müraciətdə qeyd olunub ki, Azərbaycan Ordusu işğalçı qüvvələrin növbəti həmləsini dəf edərək əks-hücum əməliyyatına başlayıb. İşğalçı Ermənistan ordusu bütün cəbhəboyu geri çəkilməyə məcbur edilib. Məğlubiyyətə uğrayan işğalçı Ermənistan ordusu çarəni dinc əhaliyə atəş açmaqda görür. Bununla Ermənistan silahlı qüvvələri əks-hücuma keçən Azərbaycan Ordusunun diqqətini yayındırmaq və işğalı daha uzun müddətə davam etdirmək istəyir.

Ermənistan silahlı qüvvələri artıq 30 ilə yaxındır ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətrafındakı yeddi rayonu işğal altında saxlayır. Bu işğal nəticəsində Azərbaycanın 1 milyondan çox vətəndaşı yaşadıqları ərazilərdən qovulub. Onlar 30 ilə yaxındır ki, qaçqın və məcburi köçkün vəziyyətində yaşayırlar.

Beynəlxalq ictimaiyyətə Ermənistanın növbəti təxribatlarına susmaması barədə çağırış ünvanlayan Paralimpiya çempionlarımızın müraciətində bildirilib: “Biz Paralimpiya çempionları, dünya ictimaiyyətini Ermənistanın növbəti təxribatlarına susmamağa çağırırıq. Azərbaycan Ordusu işğal altındakı ərazilərimizi geri qaytarmaq və doğma yurdlarından didərgin düşmüş insanları öz ata yurdlarına qovuşdurmaq üçün mübarizə aparır. Azərbaycan Ordusu dinc sakinlərin yaşamaq hüququ uğrunda mübarizə aparır.

Azərbaycanın Paralimpiya çempionları olaraq biz dünya ictimaiyyətini Ermənistanın işğalçı siyasətinə qarşı dözümlü yanaşmamağa çağırır, Azərbaycanın haqq işini dəstəkləməyi tələb edirik. Bizim ordumuz başqa bir ölkənin ərazilərini işğal etməyib. Bizim işimiz haqq işidir”.



# Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tərəfindən ordumuza dəstək

Ermənistanın növbəti təxribatının qarşısını almaq məqsədi ilə əks hücuma keçən Milli Ordumuz ərazilərimizin bütövlüyünün bərpası uğrunda düşmənə sarsıdıcı zərbələr endirərək, torpaqlarımızı azad etməkdə davam edir.

Ordumuza dəstək məqsədilə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tərəfindən ordu qərargahına yüksək keçidli avtomobillər kateqoriyasına aid, texniki imkanları hərbi nəqliyyat vasitələrinə uyğun olan “Mitsubishi” Pick-up L200 avtomobili təqdim olunub.

Həmçinin, döyüş bölgəsindəki əsgərlərimizə dəstək məqsədi ilə akademik, inzibati heyət və tələbələr öz ürək sözlərini əks etdirən “əsgərə məktub” yazıb.

Akademiya tərəfindən hazırlanan hədiyyə paketlərinə əlavə edərək cəbhə bölgəsinə göndərdilər.

— Müsahibə —

# “Junior NBA liqası Azərbaycanda basketbol tarixinin ən böyük layihəsi olacaq”



*Yarım ildən çoxdur ki, COVİD-19 pandemiyası dünyada və ölkəmizdə hər bir sahədə məhdudiyyətlər yaradıb. Bu səbəbdən bir sıra iaşə obyektləri və idman zalları uzun müddət bağlı qaldı. Bir müddət əvvəl isə ölkəmizdə tətbiq olunan xüsusi karantin rejimində bəzi yumşalmalar baş verdi. Belə ki, Nazirlər Kabinetinin yanında fəaliyyət göstərən Operativ Qərargahın açıq havada idman məşqləri və oyunları keçirilməsinə icazəsindən sonra bir çox federasiyalar açıq havada məşqlərini bərpa ediblər.*

*Bu səbəbdən də “Olimpiya dünyası” qəzeti federasiyalarla əlaqə saxlayıb idmançıların məşqlərinin hansı səviyyədə olması barədə məlumat alır. Bu dəfə basketbolçularımızın hazırki vəziyyəti ilə maraqlanmaq üçün Azərbaycan Basketbol Federasiyasının baş katibi Vüqar Əzimovla görüşdük. Vüqar müəllim basketbolçularımızın hazırlıq səviyyəsi, təxirə salınan Jr.NBA liqası və digər məsələlərlə bağlı bizə ətraflı məlumat verdi.*

***- Vüqar müəllim, basketbolçularımız açıq havada məşqlərini necə keçirirlər? Komandamızın ümumi hazırlıq səviyyəsi hansı vəziyyətdədir?***

- Bildirim ki, basketbolçularımız bu qərardan əvvəl onlayn qaydada məşqlər edirdilər. İdmançılarımızın əsas hissəsi məşqçilər ilə mütəmadi olaraq əlaqə saxlayır, onlayn şəkildə təlimatlar alırdılar. Operativ Qərargah tərəfindən açıq havada məşq və yarışların keçirilməsinə icazə verildikdən sonra isə milli komanda mütəmadi olaraq məşqlərini bərpa edib. İdmançılarımız Yasamal rayonunda və Avropa parkında yerləşən açıq hava meydançasında məşq edirlər. Çalışırlar ki, bu aylar ərzində itirdikləri səviyyəyə yiyələnsinlər.

Onu da vurğulayım ki, pandemiya dövründə təsadüf edən bir vaxtda Tatarıstan Respublikasının Kazan şəhərində birinci MDB ölkələrinin yarışının keçirilməsi nəzərdə tutulurdu. Basketbol idman növü də bu oyunların proqramına daxil edilmişdi. Bu yarışa yüksək səviyyədə hazırlaşıb, mübarizəyə qoşulmaq üçün Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi (MOK) basketbolçularımıza əla bir fürsət yaratdı. Belə ki, yarışa hazırlaşan komandalar 15 gün Gəncə Olimpiya İdman Kompleksində, 15 gün isə Mingəçevir Olimpiya İdman Kompleksində qaydalara uyğun olaraq, təlim-məşq toplanışlarında iştirak etmək imkanı əldə etdilər. Avqustun əvvəlində təlim-məşq toplanışları başa çatdı və elə həmin vaxt federasiyaya yarışların təxirə salınması ilə bağlı məktub gəldi. Pandemiya dövründə basketbolçularımız 6 ay tam şəkildə məşq etməsələr də, bir ay iştirak etdikləri təlim-məşq toplanışları sayəsində hazırlıq səviyyələrini xeyli yüksəltdilər.

***- Açıq havada oyunların keçirilməsinə icazə verildikdən sonra hansı yarışlar təşkil olunub?***

- Avqustun 25-də Yeni Yasamalda yerləşən açıq basketbol meydançasında 3x3 basketbol üzrə kişilər arasında “ABF Yay Kuboku 2020” turniri keçirildi. Həmçinin sentyabrın 19-da Astaranın “Qamışoba” açıq basketbol meydançasında Azərbaycan Basketbol Federasiyasının və “Zirvə” Beynəlxalq İdman Klubunun təşkilatçılığı ilə 3x3 basketbol üzrə “Astara Open 2020” turniri təşkil olundu.




Ümumiyyətlə, bildirim ki, Basketbol Federasiyası yarışların təşkili ilə yanaşı, oyunçuların hazırlıq səviyyəsini yüksək saxlamaq və basketbolçuları daha da həvəsləndirmək üçün əlindən gələni əsirgəmir. Bildiyimiz kimi, qapalı məkanlarda məşqlərin keçirilməsi qadağası hələ də qüvvədədir. Buna görə federasiya basketbolçuların açıq havada məşq və yarışlarını təmin etməyə çalışır.

***- İdmançıların parklarda məşq etməsi, soyunub-geyinmə otağının və digər şəraitlərin olmaması bir qədər çətinlik yaradır. Basketbolçuların rahat məşq etməsi üçün hansı tədbirlər görülüb?***

- Azərbaycan Basketbol Federasiyasının rəhbərliyi basketbolçuların rahat şəkildə məşq etməsi üçün lazım olan hər bir şəraiti yaradıb. İdmançıların məşq etdiyi məkanda həm soyunub-geyinmə otağı, həm də digər şəraitlər nəzərə alınıb. Lakin bildiyimiz kimi, Bakı şəhərində mütəmadi olaraq külək olur və bu amil də idmançıların açıq havada keçdiyi məşq prosesinə təsirsiz ötüşmür. Yəni qapalı və açıq məkanda keçirilən məşqlər biri-birindən xeyli fərqlənir. Bəzi idman növləri üzrə yarışların açıq havada keçirilməsi oyunun gedişatına xeyli təsir edir. Məsələn, basketbolçu topu səbətə atmasını planlaşdırdığı an gözlənilmədən əsən külək onun hazırladığı planı alt-üst edir. Ancaq təbii ki, bizim hazırda seçim imkanımız yoxdur və əlimizdən gələni etməliyik ki, basketbolçularımızın hazırlıq səviyyəsini artıraq.

***- Vüqar müəllim, bəs basketbolçularımız xüsusi karantin rejimi zamanı öz hazırlıq səviyyələrini nə dərəcədə qoruyub saxlamağa nail oldular?***

- Etiraf edim ki, Gəncə və Mingəçevir şəhərlərində təşkil olunan təlim-məşq toplanışlarından əvvəl idmançılar demək olar ki, tamamilə formalarını itirmişdilər. Bəzilərində həddən artıq çəki artması müşahidə olunurdu. Düşünürəm ki, bu, gözlənilən bir nəticə idi. Belə ki, basketbol fiziki hərəkət tələb edən bir idman növüdür. Düzdür, biz və məşqçilər idmançılara onlayn təlimatlar verirdik. Lakin bu yalnız onların basketbolun sirlərini unutmaması və onlarda bu növə olan istək və marağın itirilməməsi rolunu oynayırdı. Bir sözlə, basketbolçunun məşq etməsi üçün meydançanın olması şərtdir. Lakin onların tam olaraq əvvəlki səviyyələrinə qayıtması üçün qapalı zal və 5x5 oyun taktikası lazımdır.

***- Dediklərinizdən belə nəticəyə gəlmək olar ki, evdə məşq etməklə yarışlarda yüksək nəticə əldə etmək mümkün deyil.***

- Əlbəttə, bunun üçün mütləq zallar açılmalıdır. Düşünürəm ki, digər idman növü üzrə mütəxəssislər də mənimlə razılaşar ki, komanda idman növündə onlayn məşqlərin effekti olmur. Bir məsələni də qeyd edim ki, dünyanın ən böyük liqası olan Milli Basketbol Assosiasiyası (NBA) bütün strukturunu dəyişdi. Belə ki, tam üç aydan sonra NBA bütün komandaları Orlando şəhərində yerləşən qapalı zala yönəltdi. Təsəvvür edin ki, iyun ayında bitməsi planlaşdırılan yarışlar hələ də davam edir.

***- Basketbolçular koronavirus infeksiyasından özlərini necə qorudular?***

- İdmançılar karantin rejiminə əsasən özünütəcrid qaydalarına yüksək səviyyədə riayət ediblər. Bunun da məntiqli nəticəsi olaraq basketbol idman növü üzrə milli komandalar və klubların oyunçuları arasında xəstəliyə yoluxma faktı qeydə alınmayıb.

***- Bildiyimiz kimi, koronavirus pandemiyası səbəbi ilə Azərbaycan çempionatının oyunları dayandırıldı və “Zirvə Astara” çempion elan edildi. Yeni mövsümün hansı tarixdə başlanması ehtimal edilir?***

- Azərbaycan Super liqasında pley-off mərhələsinə qədər 21 tur keçirilməli idi. Lakin biz yalnız 20 tur keçirməyə nail olduq. Həmin vaxt turnir cədvəlinin reytinqinə əsasən, “Zirvə Astara” klubu xal hesabı ilə artıq birinci pillədə qərarlaşmışdı. Bu amili nəzərə alaraq “Zirvə Astara” komandası çempionatın qalibi elan edildi. Həmçinin Azərbaycan Super Liqasında 24-25 legioner idmançı mübarizə aparırdı. Xüsusi karantin rejiminin elan olunması və bütün sərhədlərin bağlanması da bizim işimizdə çətinlik yaratdı. Həmin basketbolçuların bəzilərinin ailələri xaricdə yaşayır. Buna görə də, biz çalışdıq ki, onları vaxtında ailələrinin yanına göndərək. Etiraf edim ki, biz buna böyük çətinliklə nail olduq. Legioner basketbolçularımızın əsas hissəsinin Ukrayna vətəndaşı olması və həmin ölkənin də sərhədlərinin bağlı olması gələcək planlarla bağlı fikir bildirməyə çətinlik yaradır. Ümid edirik ki, yaxın zamanda Operativ Qərargah tərəfindən qapalı məkanlarda idman yarışlarının və oyunlarının keçirilməsi ilə bağlı qərar verilər və qısa bir zamanda 28-ci Azərbaycan çempionatının oyunlarına start verərik. Onu da vurğulayım ki, bu icazədən sonra da belə dərhal çempionatın başlaması da qeyri-mümkündür.




Belə ki, idmançıların çempionatda çıxış etməsi üçün onlara bir müddət müntəzəm məşq edib, hazırlıq səviyyələrini artırmaları tələb olunur.

***- Azərbaycan çempionatının yeni mövsümündə yeni klubların mübarizəyə qoşulması nəzərdə tutulub?***

- Bəli, yeni mövsümdə bir neçə yeni klubun iştirakı gözlənilir. Lakin təəssüf ki, hazırki vəziyyətlə əlaqədar olaraq, yeni mövsümlə bağlı daha geniş məlumat vermək mümkün deyil. Çempionatın oyunları böyük ehtimalla Bakıda keçiriləcək. Buna səbəb isə yarış iştirakçılarının əsasən, paytaxt ərazisindən olmasıdır. Bu amili nəzərə alaraq deyə bilərik ki, çempionatın yenidən paytaxtda təşkil olunması ehtimalı var.

***- Martın 4-də Junior NBA liqasının draft (püşkatma) mərasiminin keçirilməsi təxirə salındı. Yarışlarla bağlı yeni bir tarix nəzərdə tutulubmu?***

- Bildiyiniz kimi, martın 2-də Operativ Qərargah tərəfindən bütün yarışların dayandırılması ilə bağlı qərar verildi. Martın 4-də isə komandalar arasında draft (püşkatma) keçirilməsi planlaşdırılmışdı. Demək olar ki, bütün hazırlıqlar tamamlanmışdı. Komandaları daşıyan nəqliyyat vasitələri, draftın keçiriləcəyi məkan, səhnənin dekorasiyası, bir sözlə, hər bir şey oyunlar üçün tam hazır idi. Həmçinin Amerikadan basketbolçular üçün xüsusi hazırlanmış NBA yazılı formalar, toplar gətirilmişdi. Əminliklə deyə bilərəm ki, Junior NBA liqası müasir Azərbaycan uşaq basketbol tarixinin ən böyük layihəsi olacaq. Ümumiyyətlə, Jr.NBA liqası dünyanın uşaq basketbolu üçün təşkil edə biləcəyi ən böyük layihədir.

***- Jr.NBA layihəsinin keçirilməsi neçə müddətə nəzərdə tutulub?***

- Hazırda Junior NBA liqasının keçirilməsi üçün üç illik müqavilə imzalanıb. Qeyd edim ki, bu layihə Azərbaycan Respublikası Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən məktəblər arasında təşkil olunur. Ölkəmizdə qüvvədə olan xüsusi karantin rejimində isə məktəblərin fəaliyyəti dayandırılmışdı. Bunu nəzərə alaraq, məktəblərdə idman dərslərinin bərpa olunmasından sonra Jr.NBA liqasının oyunlarını keçirmək mümkün olacaq.

***- Layihədə iştirakı nəzərdə tutulan uşaqlar yarışın təxirə salınma xəbərini necə qarşıladılar?***

- Tam səmimi deyim ki, bu xəbər onları sözün əsl mənasında çox sarsıtdı. Onların gözündəki kədər, üzlərindəki məyusluq həqiqətən də ürək parçalayırdı. NBA formasını geyinmək basketbol oynayan hər bir uşağın xəyalıdır. Azərbaycan Basketbol Federasiyası da onlara bu şansı təqdim edir. Etiraf edim ki, bizə həm valideynlərdən, həm də uşaqlardan yüzlərlə məktublar gəlirdi. Onların arasında hətta insanı kövrəldən məktublar da var idi. Bəziləri hətta “Los Anceles Leykers” klubunun oyunçusu olduqlarını xəyal etdiklərini belə yazırdılar. Püşkatma mərasimi böyük təmtəraq və yüksək səviyyədə keçiriləcəkdi. Həmçinin püşkatma mərasiminin bütün respublika üzrə canlı yayımlanması planlaşdırılırdı.

***- Avropa Basketbol Birliyi təşkilatın üzvü olan federasiyalarla birgə bir neçə videokonfranslar keçirdi. Həmin konfranslarda hansı məsələlər müzakirə olundu?***

- Xüsusi karantin rejimində bir neçə dəfə Avropa Basketbol Federasiyası və Dünya Basketbol Federasiyasının FİBA prezidentləri və baş katiblərinin iştirakı ilə videokonfranslar keçirildi. Bu konfranslar A və B kateqoriyalarına daxil olan ölkələr olmaq şərti ilə 3 hissədən ibarət oldu. Həmin videokonfranslarda əsas mövzu COVİD-19 pandemiyasının dünya idmanına nə dərəcədə təsir etməsi, virusdan qorunmağın yolları idi. Karantin dövründə FİBA tərəfindən federasiyamıza ayda bir dəfə idmanın hansı vəziyyətdə olması və koronavirusun ona necə təsir etməsi ilə bağlı anket göndərilirdi. Hazırda isə Beynəlxalq Basketbol Federasiyası yalnız pandemiyanın bitməsini və yenidən yarışların təşkilini gözləyir.

*Türkay Niftəliyeva*

# AMADA: “Steroidlərdən istifadə ümumilikdə cəmiyyətimizi və gələcəyimizi təhlükə altında qoyur”



“Hilton” hotelində cəmiyyətdə anabolik steroidlərdən istifadənin yayılması və onun fəsadlarına həsr olunmuş mətbuat konfransı keçirilib.

Tədbirdə Azərbaycan Milli Antidopinq Agentliyinin direktoru Şəfəq Hüseynli, Gənclər və İdman Nazirliyinin İdman Şöbəsinin müdiri Fərid Mansurov, TƏBİB-in Stasionar Tibbi Xidmətin Təşkili Şöbəsinin müdiri Kəmalə Ağayeva və Azərbaycan İdman Jurnalistləri Federasiyasının prezidenti Qabil Mehdiyev iştirak edib. Bildirilib ki, dopinqin bir növü olan anabolik steroidlərdən istifadə peşəkar idmanın sərhədlərini aşaraq cəmiyyət üçün ciddi problemə çevrilib. Hazırda dünyada onun qanunsuz dövriyyəsi və satışı genişlənməkdədir. Steroidlərdən istifadənin geniş yayılmasının əsas səbəbi istifadəçilərin qısa müddət ərzində istədikləri bədən quruluşuna sahib olmaq arzusudur. Amma onların əksəriyyəti bu maddələrin fəsadları barədə məlumatsızdırlar.

Qeyd edək ki, AMADA-nın yaradılması ilə ölkədə peşəkar idmanda daimi dopinq nəzarətinin aparılması təmin edilib. Lakin, aparılan araşdırmalar və dünyada baş verən hadisələr göstərir ki, steroidlərin istifadə ümumilikdə idman sahəsindən kənar çıxaraq ictimai xarakter alıb və artıq bütövlükdə cəmiyyət üçün təhlükə yaradır.

Steroidlərdən mütəmadi istifadə ürək tutması, infarkt, qaraciyər zədələnməsi, böyrək çatışmazlığı, cinsi zəiflik və sonsuzluq, sümük inkişafının dayanması, yaxud anormal sümük böyüməsi kimi ağır və bərpaolunmaz fəsadlar törədir. Bu maddələr orqanizmin təbii immunitetini zəiflətməklə xərçəng və digər ağır xəstəliklərə tutulma riskini artırır.

Steroidlərdən istifadə bağlılıq yaratdığı üçün bir sıra sosial-psixoloji fəsadlar da törədir. Steroidlərdən mütəmadi istifadə edənlərdə aqressiya, dərin depressiya halları müşahidə edilir. Sonradan bu maddələrin istifadəsindən imtina edən şəxslərin müalicəsi isə narkotik aludəçilərinin müalicəsindən daha ağır və mürəkkəb bir prosedurdur.

Aparılan beynəlxalq araşdırmaların nəticələri göstərir ki, narkotik istifadəçilərinin 25%-i əvvələr anabolik steroid istifadəçisi olub. Bu isə öz növbəsində cinayət hallarının artması kimi sosial problemlərlə nəticələnir.

Steroidlərdən istifadə sonsuzluq riskini artırdığı üçün həm də genefond və demoqrafik problemlərə gətirib çıxarır.



Göründüyü kimi steroidlərdən istifadənin fəsadları yalnız ondan istifadə edən şəxsin sağlamlığını yox, ümumilikdə cəmiyyətimizi və gələcəyimizi təhlükə altında qoyur.

Steroidlərin qanunsuz dövriyyəsi və satışı problemi bütün dünyada olduğu kimi, Azərbaycanda da mövcuddur. Ötən həftə Dövlət Təhlükəsizlik Xidmətinin keçirdiyi əməliyyat nəticəsində ölkəmizdə bununla məşğul olan dəstənin tutulması və külli miqdarda güclü təsiredici maddələrin dövriyyədən çıxarılması da problemin aktuallığını göstərir.

Bu problemin əsas məqamlarından biri də bu maddələrin rahat əldə edilməsi imkanıdır. Geniş əhali üçün nəzərdə tutulmuş və insanların sağlamlıq və fiziki hazırlıq üçün üz tutduqları bir sıra fitnes mərkəzləri və idman zallarında steroidlər və digər dopinq maddələri satılır və təşviq edilir.

AMADA tərəfindən gənclər arasında keçirilən sorğunun nəticəsində aydın olur ki, hər yeddi respondentdən birinə dopinq təklif edilib, onların 60%-nə isə bu təklif idman zalında və ya fitness mərkəzində edilib. Sosial media dövründə cavanlar arasında daha gözəgəlimli bədən quruluşu əldə etmək arzusu getdikcə artır və onlar idman zallarında etibar etdikləri və məsləhət istədikləri bəzi şəxslərin könüllü qurbanlarına çevrilirlər.

Bundan əlavə steroidlərin sosial şəbəkələr, internet mağazaları, hətta məşhur onlayn ticarət platformalarında satışı geniş yayılıb.

Ölkəmizdə aidiyyəti dövlət qurumları belə hallarla mübarizəni mütəmadi olaraq həyata keçirir. AMADA bu istiqamətdə Dövlət Təhlükəsizliyi Xidməti, Gənclər və İdman Nazirliyi, Daxili İşlər Nazirliyi və digər hüquq mühafizə orqanları, o cümlədən Səhiyyə Nazirliyi ilə sıx əməkdaşlıq edir. Problemin miqyasını və aktuallığını nəzərə alaraq ictimaiyyətin bu mübarizəyə fəal qoşulması vacibdir. Steroidlərin istifadəsinin fəsadları ilə bağlı maarifləndirmə işində, onun qanunsuz dövriyyəsi və satışı hallarının aşkarlanmasında ictimaiyyət nümayəndələrinin, o cümlədən də Kütləvi İnformasiya Vasitələrinin geniş imkanları var. İctimaiyyətin bu cür məsələlər üzrə məlumat əldə etdikləri zaman, hüquq mühafizə orqanlarına, əlavə olaraq idmanla bağlı olduqda isə həmçinin AMADA-ya məlumat bildirmələri bu mübarizəyə böyük töhfə verə bilər. Sağlam cəmiyyət və sağlam gələcək üçün bu mübarizədə bütün səylərin birləşdirilməsi vacibdir.

## Uşu üzrə respublika turnirində qaliblər müəyyənləşdi

Ağsu Olimpiya İdman Kompleksinin stadionunda Aprel döyüşlərində şəhid olmuş Toğrul Fərəczadənin xatirəsinə həsr edilmiş yeniyetmələr və gənclər arasında uşu üzrə respublika turniri keçirilib. Ağsu Rayon Gənclər və İdman İdarəsinin və Azərbaycan Uşu Federasiyasının birgə təşkilatçılığı ilə baş tutan yarışa 200-dən çox idmançı qatılıb.



Turnirdə ölkənin şəhər və rayonlarından ümumilikdə 20-dən çox idman klubu iştirak edib.

Respublika turnirində medal sayına görə fəxri kürsünün ən yüksək pilləsinə “Arktika” klubu qalxıb. “Göyçay” komandası ikinci, “Gəncə” komandası isə üçüncü pillədə qərarlaşıb.

## Namiq Abdullayev:
## “Olimpiya çempionu kimi yeni uğurlar qazanmağa çalışacağam”

***Xəbər verdiyimiz kimi, Olimpiya çempionu Namiq Abdullayev sərbəst güləş üzrə millimizə yeni baş məşqçi təyin olunub. Olimpiya çempionumuz təyinatla bağlı fikirlərini “Olimpiya dünyası” qəzetinə bildirib. 49 yaşlı mütəxəssis güləş üzrə yığmanın baş məşqçisi olmağın şərəfli, lakin bir o qədər də məsuliyyətli iş olduğunu qeyd edib.***

“Əvvəlcə Azərbaycan Güləş Federasiyasının rəhbərliyinə minnətdarlığımı bildirirəm ki, məni bu vəzifəyə layiq biliblər. Çalışacağam ki, mənə göstərilən bu etimadı doğruldum. Sözsüz ki, dünyanın ən güclü komandalarından biri sayılan Azərbaycanın sərbəst güləş üzrə yığmasının baş məşqçisi olmaq şərəfli olduğu qədər məsuliyyətli işdir. Biz daim ən mötəbər yarışlarda uğurlu çıxışlarla azarkeşləri sevindirməyi bacarmışıq. Azərbaycanda



güləşin zəngin ənənələri var. Dövlətin, ölkə başçısı cənab İlham Əliyevin idmana diqqət və qayğısı nəticəsində bu ənənələri yaşatmaqda davam edirik. Əlbəttə, bizdən gözləntilərin böyük olduğunu bilirik və bu məsuliyyəti dərk edirik. Olimpiya çempionu kimi təcrübəmdən istifadə edərək, komandamızla birgə yeni-yeni uğurlar qazanmağa çalışacağam.

Bilirsiniz ki, Olimpiya Oyunlarına təxminən 10 ay vaxt qalıb. Hələ ki, karantinlə bağlı olaraq açıq havada məşqlərimizi davam etdiririk. Qapalı məkanda məşq etməyə icazə verildikdən sonra isə tam gücümüzlə təlim-məşq toplanışına start verəcəyik”, - deyə Namiq Abdullayev bildirib.




## AFFA erməni vandalizmi ilə bağlı FİFA-ya və UEFA-ya müraciət edib

Sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Naftalan şəhərində həlak olan ailənin üzvlərindən biri - 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov 2017-2018-ci il mövsümündə AFFA-nın təşkilatçılığı keçirilən U-11 Liqasında UGİM (Naftalan) komandasının heyətində çıxış edib. Azərbaycan futbol ailəsinin 13 yaşlı üzvünün həlak olması ilə əlaqədar AFFA dərin hüznlə başsağlığı verir, bütün şəhidlərimizə Allahdan rəhmət diləyir.

Ş.Qurbanovun Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində həlak olması ilə bağlı AFFA tərəfindən FIFA-ya və UEFA-ya müvafiq məktublar ünvanlanıb.

## FİFA yeniyetmə futbolçumuzun həlak olması ilə əlaqədar AFFA-ya başsağlığı verib

FİFA azyaşlı futbolçu Şəhriyar Qurbanovun həlak olmasına görə AFFA-ya başsağlığı məktubu göndərib. Bu barədə AFFA-nın saytı məlumat yayıb. Məktubda bunların yazıldığı bildirilib:

“Şəhriyar Qurbanov xatirəsinə, Bu məktubla azyaşlı futbolçu Şəhriyar Qurbanovun bu yaxınlarda dünyasını dəyişməsi ilə bağlı səmimi və dərin hüznlə başsağlığımızı ifadə etmək istərdik. Şəhriyarın ailəsinə, Naftalan futbol klubundakı komanda yoldaşlarına, dostlarına və sevdiklərinə dərin hüznümüzü çatdırır, bu çətin zamanda sözlərimizin sülh və təsəlli verəcəyinə ümid edirik”.

# “Tofiq Bəhramov haqqında kitab yazmağı özümə borc bildim”

Bu yaxınlarda Şuşa Uşaq Gənclər İdman - Şahmat Məktəbinin direktoru Əbülqasım Novruzovun yeni kitabı işıq üzü görüb. Kitab XX əsrdə yaşamış məşhur şuşalı, futbol üzrə beynəlxalq dərəcəli hakim Tofiq Bəhramova ithaf olunub. “Şuşalı laynsman Tofiq Bəhramov” adlı kitabda Azərbaycanın futbol tarixindən, keçmiş SSRİ-də və beynəlxalq yarışlarda, o cümlədən dünya və Avropa çempionatlarında layiqincə hakimlik etmiş və DÇ-1966-nın finalında İngiltərə kraliçası tərəfindən “Qızıl fit” və “Qızıl İlahə”nin kiçik model mükafatını almış Tofiq Bəhramov haqqında maraqlı məlumatlar yer alıb.

Kitab mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Qeyd edək ki, bu müəllifin işıq üzü görmüş sayca altıncı kitabıdır. Buna qədər “Şuşanın idman tarixi və idmançıları”, “Şuşa futbolu”, “Şuşalı Qaçay pəhləvan”, “Şuşada voleybolu sevirdilər”, Şuşalı güləşçilər” kitabları müxtəlif illərdə oxuculara təqdim edilib.

Bu kitablar 2015, 2017 və 2019-cu illərdə ilin mükafatlarına layiq görülüb.

Müəllif kitab haqqında fikirlərini “Olimpiya dünyası” qəzetinə bildirib.




“Mən bir şuşalı kimi Şuşanın idman tarixindən bəhs edən kitabların müəllifiyəm. Müxtəlif illərdə bir sıra qəzet və jurnallarda Şuşa idmanı haqqında 120-ə yaxın məqaləm çapdan çıxıb. Bildiyiniz kimi, Tofiq Bəhramov da Azərbaycanın dilbər guşəsi olan Şuşa şəhərinin “Çuxur” məhəlləsində anadan olub. Onun uşaqlıq illəri Şuşada keçib. Sonra o, atasının işləri ilə əlaqədar olaraq, əvvəlcə Ağdama, bir qədər vaxtdan sonra isə Bakıya köçməli olmuşdur. Mən də bir şuşalı kimi, dünya şöhrətli futbol hakimi Tofiq Bəhramov haqqında kitab yazmağı özümə borc bildim. Oxucular bu kitabda Tofiq Bəhramov haqqında xatirələr, Şuşanın Cıdır düzündən İngiltərənin “Uembli” stadionunadək olan çıxışlarından bəhs edən məlumatlar yer alıb. Kitabda həmçinin onun həyat və yaradıcılığından, futbola olan böyük marağından və təsadüf nəticəsində futboldan hakimliyə keçməsi haqqında da məlumatlar əldə etmək olar. Tofiq Bəhramov yeganə azərbaycanlı futbol hakimidir ki, dünyanın 52 ölkəsində yaşıl meydanlarda hakimlik edib və bir dəfə də olsun heç bir futbolçuya qırmızı vərəqə göstərməyib. Eyni zamanda o, 2 dünya çempionatının final yarışlarında hakimlik edib”, - deyə kitabın müəllifi bildirib.

Qeyd edək ki, Əbülqasım Novruzov müxtəlif illərdə “Azərbaycanın Bədən Tərbiyəçisi və İdman əlaçısı” döş nişanı, “Azərbaycan Respublikasının Qabaqcıl təhsil işçisi” döş nişanı və “Tərəqqi” medalı ilə təltif olunub.

# FUTBOL



## "Qarabağ" qələbəni əsgər salamı ilə qeyd etdi

Ağdamın "Qarabağ" futbol klubu UEFA Avropa Liqasının qrup mərhələsinə vəsiqə qazanıb. Oktyabrın 1-də turnirin pley-off mərhələsi çərçivəsində Ağdam təmsilçisi Polşanın "Legiya" komandasının qonağı olub. Varşavadakı "Wojska Polskiego" stadionunda keçirilən qarşılaşmanı Almaniyadan olan hakimlər briqadası idarə edib. Matça "Qarabağ" komandası fəal başlasa da, ilk hissədə tərəflərdən heç biri fərqlənə bilməyib. Birinci hissə 0:0 hesablı heç-heçə ilə yekunlaşıb. Qarşılaşmanın 50-ci dəqiqəsində "Qarabağ"ın futbolçusu Kvabena Ovusunun ötürməsini Patrik Andrade baxımlı qolla tamamlayıb. On iki dəqiqə sonra Ağdam təmsilçisinin müdafiəçisi Abdullah Zubir komandasının ikinci topunu "Legiya"nın qapısından keçirib. Görüşün 70-ci dəqiqəsində Filip Ozobiç hesab arasındakı fərqi artırıb və bu, matçda vurulan sonuncu qol olub.



Beləliklə, "Qarabağ" komandası "Legiya"ya 3:0 hesabı ilə qalib gəlib. Ağdam klubu bu qələbəni əsgər salamı ilə qeyd edib.

Yeni reqlamentə əsasən, mərhələ bir oyundan ibarət olduğu üçün "Qarabağ" qrup mərhələsinə vəsiqə qazanıb.

"Qarabağ" ardıcıl 7-ci mövsüm avrokuboklarının qrup mərhələsində iştirak hüququna yiyələnib. Ağdam komandası Avropa Liqasının qrup mərhələsində isə 6-cı dəfə mübarizə aparacaq.

## *Azərbaycanın UEFA reytinqində xalı artdı*

Avropa Liqasının pley-off mərhələsinin oyunlarından sonra UEFA-nın yeni reytinq cədvəli açıqlanıb. "Qarabağ"ın Polşada "Legiya"ya 3:0 hesabı ilə qalib gəlməsi Azərbaycanın aktivinə daha 0,375 xal yazdırıb. Bununla da ölkəmiz ümumi xal sayını 16,625-ə yüksəldib. 26-cı pillədəki mövqeyini möhkəmləndirən Azərbaycan Qazaxıstanı 1,000 xal üstələyib.

25-ci pillədəki Rumıniyanın ÇFR klubu qrupa yüksələrək ölkəsinin aktivinə 0,375 xal yazdırıb. Hazırda bu ölkənin 17,200 xalı var.



Günün digər oyununda "Neftçi" "Zirə" komandasının qonağı olub. Zirə İdman Kompleksinin stadionunda keçirilən görüş meydan sahiblərinin qələbəsi ilə yekunlaşıb - 1:0. Yeganə qolu 90+5-ci dəqiqədə Voyislav Stankoviçin müdafiə xəttindəki kobud səhfindən sonra Davit Volkov vurub.

Qeyd edək ki, aprelin 4-də keçirilməsi planlaşdırılan "Qarabağ" - "Səbail" görüşü təxirə salınıb.

## *"Zirə" çempionatın vahid lideri oldu*

Futbol üzrə Azərbaycan Premyer Liqasında V turun oyunları keçirilib. Turun açılış matçında "Keşlə" komandası "Sabah"ı qəbul edib. Qarşılaşma meydan sahiblərinin 2:0 hesablı qələbəsi ilə yekunlaşıb. Görüşdə ilk qolu 54-cü dəqiqədə Silvio Rodriqes vurub. 90+1-ci dəqiqədə Vüsal İsgəndərli fərqi artırıb. 25 yaşlı yarımmüdafiəçi qol sevincini əsgər salamı verərək qeyd edib.



Turun ikinci oyun günündə Qəbələ şəhər stadionunda "Qəbələ" komandası "Sumqayıt" klubunu qəbul edib. Qarşılaşma 1:1 hesablı heç-heçə ilə başa çatıb. Matçda hər iki qol ilk hissədə vurulub. Belə ki, 26-cı dəqiqədə çempionatın bombardiri Əli Qurbani qonaqları hesabda önə keçirib. Bu, 30 yaşlı oyunçunun cari mövsümdə 5-ci qolu olub. Cənubi azərbaycanlı forvard 12 dəqiqə sonra isə zədələnərək meydanı tərk edib. Hissənin əsas vaxtının başa çatmasına 1 dəqiqə qalmış meydan sahibləri tarazlığı bərpa ediblər. Bu eyni zamanda matçın yekun nəticəsi olub.

Beləliklə, 5 turdan sonra xalını 10-a çatdıran "Zirə" liderliyə yüksəlib. Aktivində 8 xal olan "Keşlə" və "Sumqayıt" komandaları müvafiq olaraq, ikinci, üçüncü yerləri bölüşürlər. "Neftçi" 7 xalla 4-cü pillədə qalıb. "Sabah" komandası isə 6 xalla 5-ci pillədə yer alıb. Rəqiblərindən 1 oyun az keçirən "Qarabağ" 5 xalla altıncıdır. "Qəbələ" və "Səbail" isə müvafiq olaraq, turnir cədvəlinin sonuncu pillələrində qərarlaşıblar.

## UEFA Çempionlar Liqasında qrup mərhələsinin püşkü atıldı



İsveçrənin Nyon şəhərində UEFA Çempionlar Liqasının 2020/2021-ci il mövsümünün qrup mərhələsinin püşkü atılıb. Türkiyənin turnirdəki yeganə təmsilçisi "Başakşehir" PSJ (Fransa), "Mançester Yunayted" (İngiltərə) və "Leyptsiq"ə (Almaniya) rəqib olub.

**Püşkün nəticəsi aşağıdakı kimidir:**

**"A" qrupu:** "Bavariya" (Almaniya), "Atletiko" (İspaniya), "Zaltsburq" (Avstriya), "Lokomotiv" (Moskva, Rusiya),

**"B" qrupu:** "Real Madrid" (İspaniya), "Şaxtyor" (Ukrayna), "İnter" (İtaliya), "Borussiya" (Münhenqladbax, Almaniya),

**"C" qrupu:** "Porto" (Portuqaliya), "Mançester Siti" (İngiltərə), "Olimpiakos" (Yunanıstan), "Marsel" (Fransa),

**"D" qrupu:** "Liverpul" (İngiltərə), "Ayaks" (Niderland), "Atalanta" (İtaliya), "Midülland" (Danimarka),

**"E" qrupu:** "Sevilya" (İspaniya), "Çelsi" (İngiltərə), "Krasnodar" (Rusiya), "Renn" (Fransa),

**"F" qrupu:** "Zenit" (Rusiya), "Borussiya" (Dortmund, Almaniya), "Latsio" (İtaliya), "Brügge" (Belçika),

**"G" qrupu:** "Yuventus" (İtaliya), "Barselona" (İspaniya), "Dinamo" (Kiyev, Ukrayna), "Ferentsvaroş" (Macarıstan),

**"H" qrupu:** PSJ (Fransa), "Mançester Yunayted" (İngiltərə), "Leyptsiq" (Almaniya), "Başakşehir" (Türkiyə).

Qeyd edək ki, Çempionlar Liqasında qrup mərhələsinin oyunlarına oktyabrın 20-də start veriləcək.

## "Beşiktaş": Tək deyilsən, Azərbaycan

Türkiyənin "Beşiktaş" klubu növbəti dəfə Azərbaycana dəstək olub. Bu barədə İstanbul təmsilçisinin rəsmi "Twitter" hesabında paylaşım edilib.

"Beşiktaş"ın ev oyunlarını keçirdiyi "Vodafone Park" stadionunun tribunasında Azərbaycan və Türkiyə bayrağı yerləşdirilib. Tribunadakı pankartda "Bir millət, iki dövlət, Tək deyilsən Azərbaycan" yazılıb.

Qeyd edək ki, "Beşiktaş" Türkiyə Super Liqasının IV turunda evdə "Genclerbirliyi" ilə üz-üzə gəlib. Qarşılaşma qonaq komandanın qələbəsi ilə başa çatıb -0:1.

## "Qarabağ"ın Avropa Liqasının qrup mərhələsindəki rəqibləri müəyyənləşib

Futbol üzrə UEFA Avropa Liqasının qrup mərhələsinin püşkü atılıb. İsveçrənin Nyon şəhərində təşkil olunan mərasim zamanı 48 komanda 12 qrupa bölünüb. Azərbaycanın turnirdəki yeganə təmsilçisi olan "Qarabağ"ın rəqibləri müəyyənləşib. Püşkatmaya ilk dəfə ikinci səbətdən qoşulan Ağdam klubu İspaniyanın "Vilyarreal", İsrailin "Makkabi" (Təl-Əviv) və Türkiyənin "Sivasspor" komandaları ilə birlikdə "I" qrupunda yer alıb.

**Püşkün nəticəsi aşağıdakı kimidir:**

**"A" qrupu:** "Roma" (İtaliya), "Yanq Boyz" (İsveçrə), ÇFR (Kluj, Rumıniya), MOİK (Sofiya, Bolqarıstan),

**"B" qrupu:** "Arsenal" (İngiltərə), "Rapid" (Vyana, Avstriya), "Molde" (Norveç), "Dandolk" (İrlandiya),

**"C" qrupu:** "Bayer Leverkuzen" (Almaniya), "Slaviya" (Praqa, Çexiya), "Hapoel" (Beer-Şeva, İsrail), "Nitsa" (Fransa),

**"D" qrupu:** "Benfika" (Portuqaliya), "Standard" (Lyej, Belçika), "Qlazqo Reyncers" (Şotlandiya), "Lex" (Poznan, Polşa),

**"E" qrupu:** PSV (Eyndhoven, Niderland), PAOK (Yunanıstan), "Qranada" (İspaniya), "Omoniya" (Kipr),

**"F" qrupu:** "Napoli" (İtaliya), "Real Sosyedad" (İspaniya), AZ (Alkmaar, Niderland), "Riyeka" (Xorvatiya),




**"G" qrupu:** "Braqa" (Portuqaliya), "Lester Siti" (İngiltərə), AEK (Afina, Yunanıstan), "Zarya" (Luqansk, Ukrayna),

**"H" qrupu:** "Seltik" (Şotlandiya), "Sparta" (Praqa, Çexiya), "Milan" (İtaliya), "Lill" (Fransa),

**"I" qrupu:** "Vilyarreal" (İspaniya), "QARABAĞ" (AZƏRBAYCAN), "Makkabi Təl-Əviv" (İsrail), "Sivasspor" (Türkiyə),

**"J" qrupu:** "Tottenhem" (İngiltərə), "Lüdoqorets" (Bolqarıstan), LASK (Avstriya), "Antverpen" (Belçika),

**"K" qrupu:** MOİK (Moskva, Rusiya), "Dinamo Zaqreb" (Xorvatiya), "Feyenoord" (Niderland), "Volfsberq" (Avstriya),

**"L" qrupu:** "Gent" (Belçika), "Srvena Zvezda" (Serbiya), "Hoffenhaym" (Almaniya), "Slovan" (Liberets, Slovakiya),

Qeyd edək ki, qrup mərhələsinin iştirakçılarından 18-i birbaşa, 21-i Avropa Liqasının pley-off mərhələsi vasitəsilə yüksələnlərdən, 6-sı Çempionlar Liqasının pley-off, 3-ü isə III təsnifat mərhələsində Liqa Yolunda uduzanlardan ibarətdir. Oyunlar oktyabrın 22-də və 29-da, noyabrın 5-də və 26-da, həmçinin dekabrın 3-də və 10-da keçiriləcək.



Dünya-idmanı

## *Beşnövçülük üzrə dünya çempionatı ləğv edildi*

Beynəlxalq Müasir Pentatlon Birliyinin (UIPM) İcraiyyə Komitəsi bu il keçirilməsi planlaşdırılan beşnövçülük üzrə dünya çempionatını ləğv etmək qərarına gəlib. Bu barədə qurumun mətbuat xidməti məlumat yayıb.

Yarış Meksikanın Cancun şəhərində noyabrın 30-dan dekabrın 8-dək keçirilməli idi. Turnir koronavirus pandemiyası səbəbindən ləğv edilib.




Qeyd edək ki, dünya çempionatının əvvəlcə bu il mayın 25-31-də Çinin Xiamen şəhərində keçirilməsi nəzərdə tutulmuşdu.

## Maykl Cordan yeni komanda yaradacaq

Adını basketbol tarixinə qızıl hərflərlə yazdıran Maykl Cordan ABŞ-da təkcə öz sevimli idman növü ilə məşhurlaşmayıb. Basketbol oynadığı illərdə bir müddət karyerasına fasilə verərək beysbolla məşğul olan M.Cordan hazırda "Şarlott Hornets" klubunun sahibidir. Lakin bununla da kifayətlənməyən sabiq basketbolçu özünə daha bir məşğuliyyət tapıb. NBA əfsanəsi Maykl Cordan NASCAR seriyasında mübarizə aparacaq yeni komanda yaradacaq.




M.Cordanla yanaşı bu komandaya məşhur pilot Denni Hemlin də rəhbərlik edəcək. M.Cordanın belə bir komanda yaratmaq istəməsi onun uşaqlıq arzusu olub. Mətbuata açıqlama verən Cordan qərarı haqda deyib : "Uşaqlıq illərimi Şimali Karolina ştatında keçirmişəm. O vaxt valideynlərim məni qardaş və bacılarımla birgə NASCAR yarışlarını izləməyə aparardı. Mən həyatım boyunca bu seriyanın fanatı olmuşam. Denni Hemlinlə birgə Bob Uollasın çıxış edəcəyi bir komandaya rəhbərlik etmək məni daha da həyəcanlandırır.

M.Cordanın rəhbərlik edəcəyi komandanın hansı ad və nömrə ilə çıxış edəcəyi hələ məlum deyil.

## Rusiya dünya kubokuna ev sahibliyi edəcək

Boks üzrə komandalararası dünya kuboku yarışları Rusiyanın Novosibirsk şəhərində keçiriləcək. Bu barədə TASS informasiya agentliyi məlumat yayıb.

Beynəlxalq Boks Assosiasiyası (AIBA) tərəfindən təşkil ediləcək dünya kuboku yarışı 2021-ci ildə baş tutacaq.

olimpnews.az - sizin saytınız






### Üfüqi

1. Atletikada 42 km, 195 m məsafəni əhatə edən qaçış növü. 2. Onnövçülük. 5. Türkiyədə nəşr olunan idman qəzeti. 6. Bilyardda məşhur termin. 9. Uruqvaylı futbolçu Kavaninin adı. 11. Argentinalı keçmiş futbolçu Ariel Arnaldo...12. Hakimin "silahı". 13. "Andrea Doria" və "Samperdareneze" klublarını birləşməsindən sonra yaranan komanda. 17. Karatedə salamlaşma. 10. Üzgüçülük, velosiped və qaçışı özündə birləşdirən Olimpiya idman növü.

### Şaquli

3. Qolfda zərbə. 4. Yarışda son mərhələ. 7. Uyğunlaşma. 8. Kanar adalarını İspaniya Sequndasında təmsil edən klub. 10. "Mançester Siti"nin argentinalı futbolçusu... Aquero. 14. Fransada təşkil olunan nüfuzlu tennis turniri Rolan...15. Atıcılıq qurğusu. 16. XV Yay Olimpiya Oyunlarına ev sahibliyi edən şəhər. 18. Madrid "Atletiko"sunun ev oyunlarını keçirdiyi stadion Vanda...

## Azarkeşlərə şad xəbər

Rusiya Futbol Birliyi Rusiya millisinin yaxın zamanlarda keçirəcəyi oyunlarda azarkeşlərin iştirak edəcəyini təsdiqləyib. Qurum bu barədə məlumatı rəsmi səhifəsində yayımlayıb. Azarkeşlərə Millətlər Liqasında Rusiyanın Türkiyə milli komandası ilə oktyabrın 11-də Moskvanın "VTB Arena"sında keçiriləcək oyunu və oktyabrın 14-də Macarıstana qarşı oyunu izləmə şansı veriləcək. Həmçinin oktyabrın 8-də Moskvanın "VEB Arena" stadionunda İsveçə qarşı yoldaşlıq oyunu zamanı da azarkeşlərə canlı izləmə imkanı veriləcək.

Bundan əlavə azarkeşlər oktyabrın 9-da "Ximki Arena" stadionunda keçiriləcək 2021-ci il U-21 Avropa çempionatının Rusiya-Estoniya qarşılaşmasını izləyəcəklər.

Qeyd edək ki, UEFA-nın İcrayyə Komitəsi yerli hakimiyyət tərəfindən icazə verilən dövlətlərdə azarkeşlərin stadionlara qismən geri qayıtmasına razılıq verib. Azarkeşlər stadionun ümumi tutumunun 30 faizini təşkil edəcəklər. Lakin növbəti qərarlar verilənədək qonaq komanda azarkeşləri stadionlara buraxılmayacaq. Hər bir tamaşaçı sosial məsafəni qorumaq məcburiyyətindədir. Yerli hakimiyyətin qərarından asılı olaraq, əlavə özünü qoruma üsulları tətbiq oluna bilər. Məsələn, ağız və burunu tam bağlı saxlamaq şərti ilə maskaların istifadəsi və s.

---

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və MOK-un kollektivi Azərbaycan Atıcılıq Federasiyasının I vitse-prezidenti, atıcılıq üzrə yığma komandanın baş məşqçisi

**Hafiz Cəfərovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin!

---

Azərbaycan Atıcılıq Federasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Atıcılıq Federasiyasının I vitse-prezidenti, atıcılıq üzrə yığma komandanın baş məşqçisi

**Hafiz Cəfərovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin!

---

Daxili İşlər Nazirliyinin (DİN) İdman Cəmiyyətinin sədri, Olimpiya çempionu Zemfira Meftaxetdinova və cəmiyyətin kollektivi Azərbaycan Atıcılıq Federasiyasının I vitse-prezidenti, atıcılıq üzrə yığma komandanın baş məşqçisi

**Hafiz Cəfərovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin!

---

Respublika Yüksək İdman Ustalığı Məktəbinin kollektivi Azərbaycan Atıcılıq Federasiyasının I vitse-prezidenti, atıcılıq üzrə yığma komandanın baş məşqçisi

**Hafiz Cəfərovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

---

"Olimpiya dünyası" qəzetinin kollektivi Azərbaycan Atıcılıq Federasiyasının I vitse-prezidenti, atıcılıq üzrə yığma komandanın baş məşqçisi

**Hafiz Cəfərovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19